# Alfred Nobelin məşhur vəsiyyətinin qısa tarixçəsi

**Dünyaca məşhur Nobel mükafatının verilməsi barədə vəsiyyətnamə 127 il bundan əvvəl – 27 noyabr 1895-ci ildə tərtib olunub. Bu tarixi aktın müəllifi Alfred Bernard Nobel adını insanlıq tarixinə qızıl hərflərlə yazmış şəxsdir. O, 1833-cü il oktyabrın 21-də İsveçin paytaxtı Stokholmda dördüşaqlı ailədə dünyaya gəlib. Robert və Lüdviq ondan yaşca böyük, Emil isə kiçik olub.**

Nobel ailəsi o dövrdə çeşidli sahələrdə çalışıb. XIX ərin 40-cı illərində silah ticarəti ilə məşğul olan Nobel qardaşları Rusiyaya köçüblər, 20 ildən sonra yenidən İsveçə qayıdıblar. 30 yaşında Alfred ingilis, rus, fransız dillərini mükəmməl mənimsəyib. O, İsveçə döndükdən sonra nitroqliserin almaq üzərində çalışıb, tezliklə onun kütləvi istehsalına nail olub. Alfred 1866-cı ildə dinamiti ixtira edib, sonra tüstüsüz barıtın tərkibini tapıb. İstedadlı mühəndis-ixtiraçı Avropada bu sahə ilə məşğul olan 90-dək zavod, fabrik açıb.

Lakin 1888-ci ildə Alfredin böyük qardaşı Lüdviqin vəfatı onun həyatını kökündən dəyişib. Bunun əsas səbəbi dövri mətbuatda dərc olunmuş yazılar olub. Belə ki, fransız qəzetlərindən biri səhvən Alfredin “ölüm taciri” adlandırıldığı nekroloq çap edib. Bu səhv onu həyatında ciddi düzəliş etməyə məcbur edib.

Alfred Nobel 1895-ci il noyabrın 27-də yazdığı vəsiyyətnaməsində varidatının, təxminən, 94 faizini “il ərzində bəşəriyyətə böyük töhfələr vermiş şəxslər” üçün 5 mükafatın (fizika, kimya, fiziologiya, yaxud tibb, ədəbiyyat və sülh) təsis edilməsinə ayırmağı vəsiyyət edib. Onun bu mükafatlar üçün möhtəşəm planlar təklif etməsinə baxmayaraq, sonralar bir sıra problem yaşanıb. A.Nobelin vəsiyyəti ilə barışmayan qohumları, hətta, etiraz etmək istəyiblər.

Vəsiyyətnamənin mətnində etiraza səbəb ola biləcək “nöqsanlar” var idi. Belə ki, Alfredin qanuni yaşayış yerinin hansı ölkə olması mübahisəli idi. O, 9 yaşına qədər İsveç vətəndaşı olub, sonralar Rusiya, Fransa və İtaliyada yaşayıb. A.Nobel ölümündən sonra İsveçdə dəfn edilməsini bildirib. Vəsiyyətnamə və əmlakın taleyini isə yaşadığı ölkə müəyyənləşdirməli idi. Əgər həmin ölkə Fransadırsa, vəsiyyətnamə qəbul edilməyə və vergi alına bilərdi. Nobel sülh mükafatını məhz Norveç parlamentinin verməsini istəyib. Buna görə də bir çoxları onu vətənpərvər olmamaqda günahlandırıb. Mükafatları təyin edəcək fond da təsis olunmalı idi. Vəsiyyətnamədə bildirilməyib ki, ilin qalibi olmayanda nə edilməlidir.

Alfredin vəsiyyətnaməsindəki belə natamamlıqlar və digər manevrlər nəticəsində Nobel fondunun yaradılması 5 il ləngiyib. Nəhayət, mükafat ilk dəfə 1901-ci ildə təqdim olunub.

İqtisadiyyat nominasiyası isə Alfred Nobelin 1895-ci ildə şəxsən hazırladığı siyahıya daxil edilməyib. Bu sahə üzrə mükafatın digər elmlərlə eyni səviyyədə olması nəzərdə tutulur. İqtisadiyyat üzrə mükafatı 1968-ci ildə İsveç bankı Sveriges Riksbank təsis edir və bu bank tərəfindən də maliyyələşdirilir. Mükafat ilk dəfə 1969-cu ildə iqtisadi proseslərin təhlili üçün dinamik modellərin hazırlanması və tətbiqinə görə Danimarka və Norveç alimləri Yan Tinberqenə və Raqnar Frisxə verilib.



Xatırladaq ki, Nobel qardaşları Krım müharibəsi zamanı çar Rusiyası ordusu üçün silah istehsal etmək məqsədilə Azərbaycana da gəlib. Robert tüfəng qundağı üçün qoz ağacı (bəzi mənbələrə görə dəmirağac) sorağı ilə Lənkərana, oradan da Bakıya gəlib. O, Bakıda neftlə bağlı geniş biznes imkanları görüb və qardaşlarını da burada şirkət açmağa inandırıb. 1875-ci ildə Nobel qardaşları Bakıda neft istehsalı qardaşlığı şirkətini qurublar. Az müddətdə onlar Abşeronun bir sıra neft mədənlərinin sahibi olublar, zavodlar alıblar, neft kəmərləri çəkiblər və külli miqdarda kapitala yiyələniblər.

Sonda bildirək ki, Xalq şairi Bəxtiyar Vahabzadə bir şeirində Nobel mükafatı vəsaitinin böyük hissəsinin Bakıda qazanılmasına baxmayaraq, onun hansısa azərbaycanlıya verilməməsindən təəssüflə söz açıb.

**Elçin ABBASOV,**
**“Xalq qəzeti”**